# Əsrarəngiz təbiət incisi - Daşkəsənin Əmirvar şəlaləsi

Kiçik Qafqazın şimal-şərqində dəniz səviyyəsindən 1600-1800 metr yüksəklikdə yerləşən, ecazkar təbiəti ilə seçilən Daşkəsən rayonunun gəzməli-görməli yerlərindən biri də Əmirvar kəndindəki dağ şəlaləsidir. Rayon mərkəzindən təxminən 20 kilometr aralıda yerləşən, zirvəsinə qədər yaşıllıqlarla örtülmüş uca dağlar qoynuna sığınan ucqar kəndlərdən olan Əmirvarda şəlaləyə gedən yol yaylaqların əhatəsindən və meşənin içərisindən keçir. Meşənin dərinliklərində bir-birindən gözəl təbiət lövhələrinin səbəbkarı olan, dar dərədə sıxılan Əyriçayın sal qayaların arasından keçib aşağı töküldüyü yerdə Əmirvar şəlaləsi yaranır.

Şəlaləyə avtomobillə 350 metrə qədər yaxınlaşmaq mümkündür. Bundan sonra 10 dəqiqəlik yolu piyada getmək lazımdır.



Yerli sakinlərin "Şır-şır" adlandırdıqları şəlalə ilboyu öz gözəlliyini qoruyan, hər fəsildə ziyarətçilərinə fərqli və gözəl duyğular bəxş edən bənzərsiz məkandır. Şəlalənin səsi, ətrafdakı meşənin sakitliyi, təbiətin heyrətamiz ahəngi buranı əvəzsiz edir. "Şır-şır"ın töküldüyü yerdə qayalara dəyən və ətrafa səpilən su damlaları Günəşin al şəfəqləri ilə birləşib göz oxşayır.

Azərbaycan.- 2025.- 1 avqust (№158).- S.7.